

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 23 (20.924)

6 fevral 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Fevralın 5-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunan konfrans-sərgi keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmişdir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunan sərgidə 2003-2013-cü illər üzrə ölkənin sosial-iqtisadi inkişafının əsas göstəriciləri, iqtisadiyyatın sənaye, infrastruktur, informasiya-kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, sosial inkişaf, turizm, ekologiya, sahibkarlıq və digər sahələrinin inkişafını əks etdirən göstəricilərə geniş yer verilmişdir.

Prezident İlham Əliyev Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunan konfrans-sərgidə çıxış etdi.

Sonra iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, nəqliyyat naziri Ziya Məmmədov, kənd təsərrüfatı naziri Heydər Əsədov, ARDNŞ-nin prezidenti Rövnəq Abdullayev, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev, “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov çıxış etdilər.

Konfrans-sərgiyə yekun vuran Prezident İlham Əliyev ötən 10 ildə qarşıya qoyulan vəzifələrin hamısının tamamilə icra edildiyini deyərək əminliklə vurğuladı ki, qəbul ediləcək üçüncü Dövlət proqramı ölkənin inkişafına yeni töhfələr verəcəkdir.




# Culfa rayonunun Əlincə kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir

Əlincə kəndi muxtar respublikanın qədim yaşayış məskənlərindən biridir. Xalqımızın əyilməzlik və qəhrəmanlıq rəmzi olan Əlincə qalasının ətəyində yerləşən bu kənd çoxəsrlik tarixə malikdir. Bu gün Əlincə kəndi həm də müasirliyin və yeniliyin vəhdətində abad yaşayış məntəqəsi görkəmi almışdır. Aparılan quruculuq işləri zamanı kəndin qədim görkəminə yeni naxışlar əlavə olunmuş, tikilən kənd və xidmət mərkəzləri, istifadəyə verilən müasir məktəb binası yaşayış məntəqəsinin simasını tamamilə dəyişmişdir.

# Əlincədə yeni kənd mərkəzinin açılışı olmuşdur





Fevralın 5-də Əlincə Kənd Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində iştirak etmişdir.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Novruz Talıbov çıxış edərək demişdir ki, Əlincədə dövlətimiz tərəfindən həyata keçirilən quruculuq tədbirləri insanların torpağa bağlılığını artırmış, onların rahat yaşamasına, təsərrüfat işləri ilə məşğul olmasına səbəb olmuşdur. Bu da kəndin inkişafı, insanların maddi-rifah halının yaxşılaşması, məskunlaşmanın artması deməkdir. İnzibati ərazi dairəsi üzrə nümayəndə göstərilən dövlət qayğısına görə sakinlər adından minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov aparılan quruculuq işləri nəticəsində Əlincə kəndinin müasir yaşayış məntəqəsinə çevrildiyini bildirmiş, bu münasibətlə sakinləri təbrik edərək demişdir: “Ölkəmizdə kəndlərin inkişafına və abadlaşmasına xüsusi diqqət göstərilir, əhalinin məskunlaşması və rahat yaşayışının təmin olunması üçün lazımi tədbirlər həyata keçirilir. Bu iş muxtar respublikada da davam etdirilir, kəndlərdə müasir infrastruktur yaradılır, yeni kənd və xidmət mərkəzləri, tibb ocaqları, məktəb binaları tikilərək istifadəyə verilir. Bu da dövlət qurumlarının fəaliyyətinin normal təşkilinə, sakinlərin müraciətlərinin vaxtlı-vaxtında həllinə, əhaliyə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsinə, şagirdlərin hərtərəfli təhsil almasına və insanların tibbi xidmətlə təmin olunmasına imkan verir. Eyni zamanda muxtar respublikanın müasirləşən kəndlərində əhalinin sosial-məişət problemlərinin həllinə də diqqət yetirilir, mənzillər telefonlaşdırılır, elektrik enerjisinin və təbii qazın fasiləsiz verilişi təmin edilir”.

Ali Məclisin Sədri demişdir: “Əlincə kəndi dəniz səviyyəsindən min metr yüksəklikdə



yerləşir. Kənddə əməkhaqqına 10 faiz əlavə ödənilir. Eyni zamanda kənddə əhalinin məşğulluğunun təmin olunması məqsədilə dövlətimiz tərəfindən güzəştli şərtlərlə kreditlər verilir, fərdi təsərrüfatlar genişləndirilir, kənd təsərrüfatı məhsullarının istehsalı artırılır. Bu gün Əlincə kəndində yaradılan infrastruktur nəticəsində insanların rahat yaşayışı təmin olunmuş, şəhərlə kənd arasındakı fərq aradan qaldırılmışdır”.

Ali Məclisin Sədri bir daha sakinləri təbrik etmiş və onlara firavan həyat arzulamışdır.

Açılışı bildirən lent kəsildikdən sonra kənd mərkəzinə baxış olmuşdur. Üç mərtəbədən ibarət olan binada rabitə evi, polis sahə məntəqəsi, baytarlıq məntəqəsi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, kitabxana, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, feldşer-mama məntəqəsi, mədəniyyət evi və 51 yerlik iclas zalı vardır. Zalda mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün lazımi şərait yaradılmışdır.

Rabitə evi mərkəzin birinci mərtəbəsindədir. Burada quraşdırılan 384 nömrəlik elektron ATS Əlincə və Xoşkeşin kəndlərində 223 abonentə xidmət göstərir. Poçt bölməsində internet və danışıq kartlarının, eləcə də gündəlik mətbuatın satışı təmin olunmuşdur. Burada bank xidmətinin göstərilməsi üçün şərait yaradılmış, kommunal xidmət haqlarının poçt bölməsində yığılması təmin edilmişdir.

Kəndin ictimai-mədəni həyatında öz fəallığı ilə seçilən Yeni Azərbaycan Partiyası Əlincə kənd ərazi ilk təşkilatının 87 üzvü vardır. Onlardan 33-ü gənclər, 39-u isə qadınlardır. Kənd mərkəzində ərazi ilk təşkilatı üçün də iş otağı ayrılmışdır. Kənd mərkəzindəki kitabxanada oxucuların istifadəsinə 6654 kitab verilmişdir.

Əlincə və Xoşkeşin kəndlərini əhatə edən baytarlıq məntəqəsinə dərman vasitələrini saxlamaq üçün soyuducu qoyulmuş, baytarlara nümunəvi iş şəraiti yaradılmışdır. Qeyd olunmuşdur ki, hər iki kənddə əhalinin əsas məşğuliyyət sahəsinin heyvandarlıq olması baytarlıq xidmətinin nümunəvi təşkilini zəruri edir. Ona görə də baytarlar mütəmadi olaraq heyvanlara qulluq göstərir, peyvəndləmə işləri aparır, profilaktik tədbirlər görürlər.

Kənd mərkəzinin birinci mərtəbəsində yerləşən polis sahə məntəqəsi üçün ayrılan iş otağında da nümunəvi xidmət şəraiti vardır. Məntəqə Əlincə və Xoşkeşin kəndlərini əhatə edir.

Binada feldşer-mama məntəqəsi üçün 4 iş otağı ayrılmış, məntəqə lazımi dərman vasitələri, ilkin tibbi yardım və peyvənd çantaları ilə təmin olunmuşdur.

Ali Məclisin Sədri kənddə əhaliyə göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsinin və insanların sağlamlığının qorunmasının əhəmiyyətini vurğulamış, gigiyenik qaydalara əməl edilməsi və səhiyyə maarifi işinin gücləndirilməsi barədə tapşırıqlar vermişdir.

Binada fərdi qazanxana qurulmuş, həyətdə abadlıq işləri aparılmış, ağac və gül kolları əkilmişdir.

Ardı 2-ci səhifədə

# Kənd sakinlərinin gündəlik ehtiyacları yeni ünvanda – xidmət mərkəzində ödəniləcək

Həmin gün Əlincə kəndində yeni xidmət mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin açılışını etmişdir.

Binada bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları vardır. Ekoloji və sanitar qaydalara cavab verən mağazalarda ərzaq məhsullarının, gündəlik tələbat mallarının, eyni zamanda geyim dəstlərinin, məktəbli formalarının və təsərrüfat mallarının satışı təşkil olunub. Xidmət mərkəzində 5 nəfər işlə təmin olunmuşdur.

Binanın həyətində abadlıq işləri aparılmış, ağac və gül kolları əkilmişdir.

Ali Məclisin Sədri mərkəzlə tanışlıqdan sonra kənd sakinləri ilə görüşmüşdür.

Kənd ağsaqqalları bildirmişlər ki, hər bir kəndin inkişafı yaradılan müasir infrastruktur və insanların rahat yaşayışı ilə ölçülür. Bu



gün Əlincə kəndi abad yaşayış məntəqəsinə çevrilmişdir. Sakinlər qurulanları, yaradılanları ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsi kimi dəyərləndirirlər. Xalqımızın bu siyasi xəttə sadiq qalması isə ölkəmizin, eləcə də muxtar respublikamızın daha sürətli inkişafından xəbər verir.

Ali Məclisin Sədri demişdir ki, dövlət-xalq birliyi Azərbaycanda inkişafın və sabitliyin başlıca şərtidir. Bu gün ölkəmizdə həyata keçirilən Heydər Əliyev siyasi xəttinin əsasında da məhz bu birlik dayanır. Ötən ilin prezident seçkilərində xalqımızın bu siyasi xətti dəstəkləməsi inkişafın davamlı olacağına zəmanət verir. Əlincə kəndində tikilənlər, qurulanlar bu inkişafın bəhrələridir. Bu mənada kənd sakinləri göstərilən dövlət qayğısından lazımınca bəhrələnməli, tikilənləri, qurulanları qorumalı, ölkəmizin inkişafına öz töhfələrini verməlidirlər.

# Əlincə kənd tam orta məktəbinin binasında müasir tədris şəraiti yaradılmışdır





Əlincə kəndində aparılan quruculuq işləri çərçivəsində kənd məktəbinin binası da yenidən qurulmuş, məktəb müasir tədris avadanlıqları və informasiya texnologiyaları ilə təmin olunmuşdur.

Fevralın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yenidənqurma işlərindən sonra məktəb binasında yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, 252 şagird yerlik məktəb binası 2 mərtəbədən ibarətdir. Məktəbdə 14 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter otağı, müəllimlər otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır.

Məktəb binasının tədris avadanlıqları ilə təminatı diqqət mərkəzində saxlanılmış, kitabxanaya 5 minə yaxın dərslik və bədii ədəbiyyat verilmişdir.

Yenidənqurma işləri zamanı məktəb binasında informasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq edilmiş, müasir kompüter otağı və 3 elektron lövhəli sinif yaradılmışdır. Kompüterlərin hər birinin internetə çıxışı təmin olunmuş, məktəbə elektron dərsliklər verilmişdir. Bu da tədris prosesində keyfiyyətin yüksəldilməsinə, eyni zamanda distant təhsil sisteminin formalaşdırılmasına və elektron tədris mübadiləsinə imkan verəcəkdir.

Elektron lövhəli sinifdə Naxçıvan Dövlət



Texniki Kolleci ilə canlı videobağlantı qurulmuşdur.

Ali Məclisin Sədri videobağlantı vasitəsilə dərs prosesini izləmişdir.

Binada kimya, biologiya və fizika laboratoriyalarının, eləcə də hərbi kabinənin yaradılması adıçəkilən fənlər üzrə tədrisin yeni metodlarla aparılmasına, keçilən dərslərin həm nəzəri, həm də praktik olaraq daha yaxşı mənimsənilməsinə imkan verəcəkdir. Məktəbdə şagirdlərin fiziki sağlamlığının inkişafı da nəzərə alınmış, müasir idman zalı istifadəyə verilmişdir.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir ki, Əlincə kənd tam orta məktəbində yaradılan müasir tədris şəraiti kənddə təhsilin inkişafına hesablanmışdır. Ona görə də tədrisin səviyyəsi yüksəldilməli, şagirdlərə Vətənə, torpağa məhəbbət hissləri aşılanmalıdır. 2012-2013-cü dərs ilində Əlincə kənd tam orta məktəbini bitirən 11 məzundan 6-sı ali məktəblərə, 1-i isə orta ixtisas məktəbinə qəbul olunmuşdur. Ali məktəblərə qəbulda 2 məzun 500-700 intervalında bal toplamışdır. Bunlar məktəbin nailiyyətidir. Gələcəkdə bu uğurlar daha da artırılmalı, təhsilli və vətənpərvər gənclər yetişdirilməlidir.

Müəllimlər yaradılan şəraitə görə minnətdarlıqlarını bildirmişlər.

* * *

Əlincə kəndində aparılan quruculuq işləri çərçivəsində kənddaxili 600 metr yola asfalt örtük salınmış, kənddə 160 metr fiber-optik kabel, 1415 metr elektrik və 250 metr qaz xətti çəkilmişdir.



*Əlincə kənd tam orta məktəbi*



*Əlincə Kənd Mərkəzi və feldşer-mama məntəqəsi üçün bina*




*Əlincə kəndində xidmət mərkəzi*

# Bənəniyar kəndində quruculuq işləri aparılacaqdır



Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri çərçivəsində bu il Bənəniyar kənd tam orta məktəbinin binasında yenidənqurma işləri aparılacaq, kənd musiqi məktəbi üçün yeni bina inşa olunacaqdır.

Fevralın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Bənəniyar kəndinə gəlmiş, məktəb binasının və musiqi məktəbinin mövcud vəziyyəti ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, Bənəniyar kənd tam orta məktəbinin binası 2 mərtəbədən ibarətdir. Tikinti işləri zamanı binaya bitişik əlavə korpuslar inşa ediləcək, müasir tədris şəraiti yaradılacaqdır. Hazırda məktəbdə 392 şagird təhsil alır. Yenidənqurma işlərindən sonra perspektiv də nəzərə alınmaqla məktəb binası 624 yerlik olacaqdır. Məktəbdə fənn kabinələri, müasir laboratoriyalar və sinif otaqları yaradılacaq, idman zalı istifadəyə veriləcəkdir.

Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi üçün də yeni bina inşa olunacaqdır. Üç mərtəbədən ibarət olacaq binada sinif otaqları, tədbirlər zalı və yardımçı otaqlar yaradılacaq, həyətdə geniş abadlıq işləri aparılacaqdır.

Ali Məclisin Sədri obyektlərin layihəsinə baxmış, tikinti işlərinə başlanılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

Naxçıvan Muxtar Respublikası – 90

# Blokada şəraitində möhtəşəm quruculuq işləri...

## Hər bir naxçıvanlı bu uğurlarla fəxr edə bilər

**Ulu öndər Heydər ƏLİYEV:** ***Naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq prosesləri gedir.***

***Azərbaycanın müstəqillik tarixində onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının və naxçıvanlıların mübarizəsi istiqlal mücadiləmizin zəngin və şərəfli səhifələrindəndir. Əslində, Bakıya tuşlanan hər bir separatçılığa birinci həmlə və cavab da Naxçıvandan gəlmiş, bu diyar bütün kəşməkəşli və ağır dövrlərdə istiqlaliyyət tariximizə öyünclü səhifələr yazmışdır.***




SSRİ-nin dağılma prosesi 1980-ci illərin sonunda Qarabağ hadisələrinin alovlandırılmasına və azərbaycanlılarla ermənilərin qarşıdurmasına gətirib çıxardı. Azadlıq hərəkatını boğmaq üçün 19 yanvar 1990-cı ildə sovet ordu hissələri Bakıya girərək həmin gecə qanlı qırğın törətdi. Bundan 8 saat əvvəl rus-erməni birləşmələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etdi, sərhəd boyu intensiv hücuma keçdi, soydaşlarımız şəhid oldular. Sərhədlərinin qorunmasına təminat ala bilməyən Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Soveti Moskva və Qars müqavilələrini əsas götürərək SSRİ-nin tərkibindən çıxmaq barədə qərar qəbul etdi. Bu, faktiki olaraq SSRİ-nin süqutunun başlanğıcı idi.

Bir neçə aydan sonra Moskvadan Vətənə dönən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan parlamenti milli dövlətçilik atributlarının bərpası istiqamətində addımlar atdı. Üçrəngli dövlət bayrağı qəbul olundu. Müstəqillik atributları barədə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Ali Soveti qarşısında məsələ qaldırıldı. Ermənistan tərəfindən blokadaya alınan Naxçıvan Muxtar Respublikasının yaşaması üçün İran və Türkiyə ilə əlaqələrin yaxşılaşmasına xüsusi diqqət yetirildi. Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi ilə əlaqədar konkret tədbirlər görüldü, Ermənistanla atəşkəsə nail olundu.

Muxtar respublikada müstəqillik illərində həyata keçirilən quruculuq, abadlıq və yenidənqurma işləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və onun siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə sıx bağlıdır. Ulu öndərin arzu və ideyalarının həyata keçirilməsində muxtar respublika rəhbərliyinin, xüsusən də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun xidmətləri mühüm bir amil kimi diqqətdən yayınmır. Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfərlərinin birində bu tarixi reallığı belə dəyərləndirmişdir: *"Hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla haqlı olaraq fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm".*

Naxçıvan Muxtar Respublikasının 1995-ci ildən sonrakı sürətli və hərtərəfli inkişaf illəri tariximizin yeni mərhələsində intibah dövrü kimi qiymətləndirilir. Son 20 ilə yaxın bir dövrdəki inkişaf və quruculuq marafonuna ötəri bir nəzər salanda belə sürətli inkişafın, həyatın bütün sahələrində, hətta respublikamız üçün nümunə olacaq nailiyyətlər qazanılmasının, diyarın haradan-haraya irəlilədiyinin aydın mənzərəsini görmək o qədər də çətin deyil. Naxçıvan şəhərini və rayon-şəhər mərkəzlərini deyil, ən ucqar kəndləri, buraya çəkilmiş rahat yolları görmək kifayətdir ki, son illərdə oxuyub-eşitdiklərinin həqiqiliyinə əmin olasan.

Keçən əsrin 90-cı illərində çox mürəkkəb tarixi-siyasi şəraitdə Moskvada nəzarət və təqiblərdən yaxa qurtararaq öz xalqının köməyinə gələn ümummilli lider Heydər Əliyev Bakıda da dönük rəhbərlərdən soyuq münasibət görəndə doğulduğu torpağa üz tutmuşdu. Burada həmyerliləri ulu öndəri misilsiz bir səmimiyyət və ehtiramla qarşılamışdılar. Başı üstünü qara buludlar almış muxtar respublika əhalisi Heydər Əliyevin zəka və qüdrətinə sığındı. Naxçıvanlılar Ulu Tanrının xalqımızın xilası və nicatı üçün qoruyub saxladığı böyük rəhbərin ətrafında sıx birləşmiş, onu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçmişdilər. Ümummilli liderin həyata keçirdiyi müdrik və qətiyyətli tədbirlər qısa müddətdə muxtar respublikanın etibarlı müdafiəsini təmin etmiş, yaxınlaşan dövlət müstəqilliyi ilə bağlı qabaqlayıcı addımlar atılmışdı.

O günlərdə üçrəngli bayrağımızın ilk dəfə Naxçıvan Ali Məclisində qaldırılması, muxtar respublikanın adından "sovet, sosialist" sözlərinin çıxarılması, qonşu Türkiyə və İranla zəruri əlaqələr yaradılması, əhalinin ehtiyac və fəlakətdən xilas edilməsi ümummilli liderin təkcə Naxçıvan deyil, bütövlükdə, xalqımız qarşısında misilsiz tarixi xidmətləri olmuşdu.

1992-1993-cü illərdə AXC-Müsavat hakimiyyətinin xalqa zidd siyasətinin bais olduğu başıpozuqluq dövründə də ulu öndər Naxçıvanı qorumuş, onu işğaldan, məhv olmaqdan xilas etmişdi. Xeyli sonra bu tarixi reallıqları dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyev demişdi: *"O illərdə ancaq ulu öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu... Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu".*

Naxçıvanı blokada şəraitində əmin-amanlığa, geniş quruculuğa yönəltmək üçün Azərbaycan Prezidenti Heydər Əliyevin tövsiyəsi ilə Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Azərbaycan Respublikası Milli Məclisinin deputatı Vasif Yusif oğlu Talıbov 1995-ci ilin dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdi. O, hələ 1991-ci ilin sentyabrından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin baş köməkçisi olmuş,Yeni Azərbaycan Partiyasının yaradılmasında və təşkilatlanmasında fəal iştirak etmişdi. Dünya şöhrətli siyasətçi, böyük dövlət xadimi Heydər Əliyevin idarəetmə məktəbini keçən, onun dövlətçilik xəttinin incəliklərini mənimsəyən, muxtar respublikanı dərindən tanıyan, onun potensialını və problemlərini yaxşı bilən, təşəbbüskar, coşqun enerjili, aydın proqramlı 35 yaşlı Vasif Talıbov muxtar respublika rəhbərliyini qəbul edərkən öz məramnaməsini bircə cümlə ilə ifadə etmişdi: "Prezident Heydər Əliyevin dövlətçilik xəttinə sadiq qalmaq, onun bu böyük etimadını layiqincə doğrultmaq".

Qayda-qanunun möhkəmləndirilməsində dövlətçilik maraqlarının uca tutulması, milli-mənəvi dəyərlərə ehtiram, şəxsi nümunə, yaxşı işin dəyərləndirilməsi, ziyanlı fəaliyyətin qarşısının kəsilməsi başlanğıc addımlar oldu. Problemlər, nöqsanlar, ehtiyaclar da dəqiq öyrənildi. Ehtiyatlar, imkan və qüvvələr aşkara çıxarılıb inkişafa yönəldildi. Ali Məclis Sədrinin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvanda keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" (1996) və "Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onlardan daha səmərəli istifadə yolları" (2000) beynəlxalq simpoziumları və digər məclislər Naxçıvanın yeniləşməsi, layiqli mövqeyə çıxması üçün siyasi-mənəvi və sosial-iqtisadi yönlərdə aydın, məqsədyönlü, ardıcıl fəaliyyətə əlavə impuls verdi.

Ulu öndərin daimi diqqəti, himayəsi, yerli potensialın hərəkətə gətirilməsi ilə ölkədə ilk dəfə Naxçıvanda Heydər Əliyevin başladığı aqrar islahat uğurla həyata keçirildi. Mövcud sənaye müəssisələri özəlləşdirildi və yenidən quruldu. Yerli ehtiyatlara əsaslanan müasir istehsalat sahələri yaradıldı. Naxçıvan şəhərində, rayon mərkəzlərində, yaşayış məntəqələrində əsaslı quruculuq işlərinə başlandı. Sosial-mədəni obyektlər, tarixi binalar təmir və bərpa edildi. Çoxsaylı yeni, zəruri obyektlər tikildi. Təhsil, səhiyyə, xidmət ocaqlarında nümunəvi şərait yaradıldı. Əhalinin elektrik enerjisi, qaz, içməli su problemi aradan qaldırıldı. Kommunikasiyalar təzələndi, genişləndi. Rabitə-nəqliyyat şəbəkəsi müasirləşdirildi, tələbata uyğun quruldu. İdarəçilikdə aşkarlıq, demokratik tələblər bərqərar oldu. Muxtar respublikanın etibarlı müdafiəsi təmin olundu, hərbi quruculuğa önəm verildi.

Gecəli-gündüzlü zəhmətin, gərgin fəaliyyətin bəhrəsi çoxaldıqca Naxçıvan Muxtar Respublikası da sosial-iqtisadi quruculuq, siyasi-mədəni fəallıq poliqonu kimi tanındı. Ulu öndər dəfələrlə muxtar respublikada oldu, uğurları yüksək dəyərləndirdi, qayğı və köməyini artırdı. Bu gün də ümummilli liderin layiqli davamçısı, regionların inkişafını prioritetə çevirmiş, bu yöndə quruculuğu şəxsi nəzarətə götürmüş Prezident İlham Əliyev muxtar diyarın daha yüksək inkişafı üçün mümkün olan hər şeyi edir. Ölkə rəhbəri hər il Naxçıvana gəlir, uğurları təqdir edir, yeni hədəflərə diqqət yetirir.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə Naxçıvanda eksperimental qaydada həyata keçirdiyi aqrar islahat sonrakı illərdə uğurla başa çatdırılmışdır. Əkinə yararlı torpaqların, ictimai əmlakın sahibi olmuş kəndli təsərrüfatları ümumi məhsulu dəfələrlə artırmağa nail olmuşlar. 1995-ci ildə diyarda 39 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdisə, 2013-cü ilin yekununda bu rəqəm 337 milyon manatı keçmişdir.

2012-ci illə müqayisədə bu ilin əvvəlindən kənd təsərrüfatı məhsulları istehsalı 6,9 faiz artmışdır. Eyni ilə iqtisadiyyatın bütün sahələrində bu uğurlu tendensiya özünü təsdiq etmişdir.

*Ardı 4-cü səhifədə*

2013-cü ildə muxtar respublikada 2 milyard 338 milyon 928 min manatlıq Ümumi Daxili Məhsul istehsal olunmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricini 10,3 faiz üstələyir. Ümumi Daxili Məhsulun tərkibində ilk yeri 28,5 faizlik payla sənaye, ikinci yeri isə 25,5 faizlik payla tikinti sahəsi tutmuş və Ümumi Daxili Məhsulun 64,8 faizi maddi istehsal sektorunun payına düşmüşdür. 2013-cü ildə hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 2012-ci ilə nisbətən 9 faiz artaraq 5423 manat (6911,8 ABŞ dolları) həcmində olmuşdur. 2013-cü ildə 2012-ci ilə nisbətən sənaye məhsulunun həcmi 6,3 faiz, əsas kapitala yönəldilən investisiyalar 5,6 faiz, kənd təsərrüfatının ümumi məhsulu 6,9 faiz yüksəlmişdir. Nəqliyyat sektorunda yük daşınması 9,5 faiz, informasiya və rabitə xidmətləri 6,1 faiz, o cümlədən mobil rabitə xidməti 5,9 faiz, pərakəndə əmtəə dövriyyəsi 11,8 faiz, əhaliyə göstərilən pullu xidmətlər 16,7 faiz, xarici ticarət dövriyyəsi 13,5 faiz çoxalmışdır. Əhalinin gəlirləri 7 faiz, hər bir nəfərə düşən gəlirlər 4,9 faiz, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 3,1 faiz artmışdır. Onu da qeyd etmək yerinə düşər ki, bu rəqəmlər ümumölkə göstəricilərindən, eləcə də digər bölgələrdəki yüksək nəticələrdən də üstündür.

Bu zirvələr "Naxçıvan möcüzəsi"nin hüdudlarını göstərməklə heyranlıq yaradır, hər birimizə sevinc və qürur gətirir. Qəddar düşmən ermənilər və onların havadarları Naxçıvanı blokadaya salmaqla onu boğmaq, batırmaq istəyirdilər. Naxçıvanlılar öz dözüm, qeyrət və hünərləri ilə bütün daxili ehtiyatları hərəkətə gətirdilər. Mövcud olan dəyərli hər şey qorundu, yeniləşdirildi. Hər qarış torpaqdan, hər damla sudan, yerli xammaldan və materiallardan səmərəli istifadə olundu. Muxtar respublikaya ən qabaqcıl dünya texnologiyaları gətirildi, müasir istehsalat quruldu.

Bu gün muxtar respublikada 346 növdə yerli məhsul istehsal olunmaqdadır. Bunun 115 növü ərzaq, 231 növü qeyri-ərzaq məhsullarıdır. 106 növdə ərzaq, 226 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 332 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Ölkənin ticarət şəbəkəsinə və xarici bazara dünya standartları səviyyəsində mallar çıxarılır. "Blokada" məfhumu məzmunca heçə endirilib. Naxçıvan şəhərində yaradılmış yeni beynəlxalq aeroport Bakı və Gəncə ilə daimi, etibarlı əlaqə yaratmağa imkan verir. Buradan xarici ölkələrə də uçuşlar həyata keçirilir. Culfa-Biləsuvar arasındakı məsafə İran ərazisindən keçməklə ölkənin əsas ərazisi ilə gündəlik avtomobil əlaqəsi yaradılır. Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsinin həyata keçməsi də, şübhəsiz ki, Naxçıvanın siyasi-iqtisadi həyatında önəmli hadisə olacaqdır.

Muxtar respublikanın rəhbəri, Heydər Əliyev idarəetmə məktəbinin istedadlı və təcrübəli yetirməsi Vasif Talıbov bu diyarı irəli aparmaq, modernləşdirmək üçün məqsədyönlü, irimiqyaslı, ardıcıl işləri uğurla davam etdirir. Muxtar respublikada aqrar islahatlar başa çatdırılmış, heyvandarlıq və bitkiçilik sahəsində böyük uğurlar qazanılmışdır. Naxçıvana xarici sərmayə axını davam edir. Son illərdə muxtar respublikada onlarla müəssisə istifadəyə verilmiş, yeni iş yerləri açılmışdır. Nəticədə, güclü iqtisadiyyatın yaradılması muxtar respublikanı yaxın illərdə məhsul ixrac edən bölgəyə çevirmişdir. Muxtar respublikada əhalinin sosial problemlərinin həlli üçün konkret işlər görülür, təhsilin, səhiyyənin, elm və mədəniyyətin inkişafına, tikinti-abadlaşdırma və bərpa işlərinə daim böyük qayğı və diqqət göstərilir. Muxtar respublikada elm və təhsil ocaqlarının tikintisinə, onların maddi-texniki bazasının müasir tələblərə uyğun qurulmasına xüsusi diqqət yetirilməkdədir. Bu istiqamətdə 2013-cü ildə Naxçıvana həsr olunmuş çoxlu sayda kitab, albom, elmi-kütləvi məqalə, qəzet və jurnal materiallarının, sənədli filmlərin, elektron daşıyıcıların qorunub saxlanması, tədqiq və təbliğ olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi fəaliyyətə başlamışdır. Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Özəl Universitetinin yeni tədris korpusları, AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyəti və 6 elmi-tədqiqat institutu üçün binalar istifadəyə verilmişdir. Eyni zamanda muxtar respublikanın şəhər və kəndlərində, xüsusilə Naxçıvan şəhərində mədəni-maarif ocaqları, idman kompleksləri, inzibati binalar inşa edilmişdir.

Naxçıvanın tarixi-memarlıq abidələrindən Möminə xatın məqbərəsi, Qarabağlar kompleksi, Yusif Küseyir oğlu türbəsi, Xan sarayı, Buzxana, İmamzadə və Əlincəçay Xanəgah kompleksləri, İsmayılxan hamamı kimi abidələr yüksək səviyyədə əsaslı təmir və bərpa edilmişdir. C.Naxçıvanskinin, H.Cavidin, M.S.Ordubadinin, C.Məmmədquluzadənin, Y.Məmmədəliyevin ev-muzeyləri yenidən qurulmuşdur. Bəhruz Kəngərlinin adı əbədiləşdirilmiş və ev-muzeyi təşkil edilmişdir. Görkəmli pedaqoq, maarifçi və şair M.T.Sidqinin 150 illik yubileyi keçirilmiş, əsərləri nəşr edilmiş və xatirəsi əbədiləşdirilmişdir. H.Cavidin xatirəsinə monumental məqbərə ucaldılmışdır.

Naxçıvan şəhərində və bölgələrdə tarixi abidələrin bərpası və qorunması ilə bağlı həyata keçirilən zəruri tədbirlər hər səfərimizdə təəssüratımızı xeyli zənginləşdirib. Təbiət möcüzəsi, müqəddəs ziyarətgah Əshabi-Kəhfə asfalt yol çəkilməsi, ziyarətçilər üçün rahatlıq yaradılması və ərazinin abadlaşdırılmasının sorağı təkcə respublikamızda deyil, qonşu ölkələrdə də dolaşır. Biz də bu həqiqəti dəfələrlə öz gözlərimizlə görüb, buradakı çox böyük quruculuq işlərini həyata keçirənlərin təkcə əməllərinə yox, həm də yaradıcı zövqə heyrətimizi gizlədə bilməmişik!..

Naxçıvan şəhərindəki qədim qala ərazisində Nuh Peyğəmbərin qəbri üstündə məqbərə ucaldılması da tarixi bir hadisədir. Ordubadda Məmməd Səid Ordubadinin, Yusif Məmmədəliyevin, Nehrəmdə Cəlil Məmmədquluzadənin ev-muzeylərində və orta əsr hamamında aparılan təmir, Kəngərli rayonunda Qarabağlar türbəsində və mədrəsə kompleksində aparılmış konservasiya işləri Naxçıvanın bu gününü gözəlləşdirməklə yanaşı, həm də böyük tarixi keçmişinə də xüsusi bir hörmətin təntənəsidir.

Naxçıvanlıların bu boyda xarüqələr yaradıb, quruculuq işləri ortaya qoyması nə qədər ağlasığmaz və əfsanəvi görünsə də, bunlar hər kəsin görüb dərk etdiyi reallıqlardır. Bu həm də o deməkdir ki, Naxçıvan rəhbərliyinin bütün fəaliyyəti Azərbaycanda, onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında cərəyan edən mühüm siyasi, ictimai və mədəni proseslərlə sıx bağlıdır. Məhz buna görədir ki, aparılan məqsədyönlü iş sayəsində qonşu xarici dövlətlərlə – Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə normal münasibətlər yaradılmış, çoxsaylı müqavilələr imzalanmışdır. Bu münasibətlər Naxçıvanda sərbəst ticarətin, iqtisadi əlaqələrin, elm, təhsil və mədəniyyətin daha da inkişaf etməsinə kömək etmişdir.

Naxçıvanın uğurları ilbəil artmaqdadır. Naxçıvan Muxtar Respublikasında həyatın bütün sahələrində müvəffəqiyyətlər qazanılır, diyarın hərtərəfli inkişafı təmin edilir. Heç də təsadüfi deyildir ki, Heydər Əliyevin siyasi kursunu böyük inamla davam etdirən ölkə Prezidenti İlham Əliyev regionların sosial-iqtisadi inkişafında Naxçıvanın xüsusi yeri olduğunu dönə-dönə qeyd edərək demişdir: "***Naxçıvanın uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir. Bizim müstəqilliyimizin möhkəmləndirilməsi deməkdir. Burada gedən işlər məni çox sevindirir. Mən əminəm ki, bu gözəl ənənələr gələcək illərdə də davam etdiriləcək və Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır. Mən çox məmnunam ki, Naxçıvan Muxtar Respublikasının rəhbərliyi, Vasif Talıbov Heydər Əliyev siyasətini burada uğurla icra edir, onu davam etdirir və Naxçıvanın möhkəmlənməsinə öz töhfəsini verir***".

Heç şübhəsiz, ölkə Prezidentinin Naxçıvanın inkişafına verdiyi bu böyük qiymət, buradakı intibah əhval-ruhiyyəsi daha böyük uğurlar əldə olunmasına təkan verəcəkdir.

**Namiq ƏHMƏDOV**
***"Xalq qəzeti"***
***5 fevral 2014-cü il***

# 2013-cü ilin yekunları müzakirə edilir



***Dünən Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ötən il görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilmişdir. Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq bildirmişdir ki, 2013-cü il bir sıra əlamətdar hadisələrlə yadda qalmışdır.***

Qeyd olunmuşdur ki, müstəqil Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar 2013-cü il Naxçıvan Muxtar Respublikasında "Heydər Əliyev ili" elan edilmişdir. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları da öz işlərini "Heydər Əliyev ili"ndə qarşıya qoyulmuş yüksək tələblər səviyyəsində qurmağa çalışmışlar.

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikasında prokurorluq orqanlarına göstərilən yüksək dövlət qayğısının nəticəsidir ki, ötən illər ərzində rayon və şəhər prokurorluqları üçün müasir avadanlıq və texniki vasitələrlə təmin edilmiş yeni inzibati binalar tikilib istifadəyə verilmişdir. Həmçinin prokurorluğun avtomaşın parkı tamamilə yenilənmiş, prokurorluq işçiləri üçün münəvi iş şəraiti yaradılmışdır.

Muxtar respublikada yaradılan ictimai-siyasi sabitliyin nəticəsidir ki, 2012-ci illə müqayisədə 2013-cü ildə qeydə alınan cinayətlərin ümumi sayında 20 faiz azalma müşahidə olunmuşdur.

Bundan başqa, əvvəlki illərdə baş verib qapalı qalmış cinayət hadisələrinin açılması sahəsində hesabat dövründə müəyyən işlər görülmüşdür. Belə ki, daxili işlər orqanları ilə əlaqəli şəkildə həyata keçirilən istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində əvvəlki illərdə baş verib qapalı qalmış 3 cinayət hadisəsinin açılması təmin edilmişdir.

2013-cü ildə peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı muxtar respublika ərazisində cinayət hadisəsi qeydə alınmamışdır.

Dövlət ittihamının müdafiəsi sahəsində hesabat ilində muxtar respublika prokurorluğu tərəfindən müəyyən işlər görülmüş, "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə Amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 7 may 2013-cü il tarixli Qərarının icrası ilə əlaqədar 38 şəxs barəsində amnistiya tətbiq olunmuşdur.

"Əməyin mühafizəsi və texniki təhlükəsizlik sahəsində Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən kütləvi informasiya vasitələrində 20 halda, o cümlədən mətbuat orqanlarında 12 halda, televiziyada 2 halda, radioda isə 6 halda maarifləndirici çıxışlar edilmişdir", – deyən Səbuhi Şahverdiyev bildirmişdir ki, prokurorluq orqanlarına Naxçıvan Muxtar Respublikası ərazisində yaşayış yeri üzrə qeydiyyatda olan şəxslərin işə qəbulunun şəffaf şəraitdə müsabiqə qaydasında keçirilməsi nəticəsində 2013-cü ildə 7 nəfər gənc hüquqşünas Naxçıvan Muxtar Respublikası Prokurorluğu və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu orqanlarına işə qəbul olunmuşdur.

Vətəndaşların müraciətlərinə baxılması sahəsində də 2013-cü il ərzində müəyyən işlər görülmüşdür. Belə ki, bu dövrdə prokurorluq orqanlarına daxil olmuş 23 müraciətə baxılmış, onların hamısı qanunvericiliyə uyğun qaydada həll edilmişdir.

Sonda qeyd olunmuşdur ki, prokurorluq əməkdaşları 2014-cü ildə – "Muxtariyyət ili"ndə də üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaq, bundan sonra da cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi üçün əllərindən gələni əsirgəməyəcəklər.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Tədbirdə Nacxıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış etmişdir.

Fevralın 5-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində də kollegiya iclası keçirilmişdir. İclası giriş sözü ilə fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev açaraq nazirliyin 2013-cü ildə gördüyü işlər barədə məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında elan olunmuş "Heydər Əliyev ili"ndə nazirliyin maddi-texniki bazasının gücləndirilməsi, kadr hazırlığının artırılması, tabelikdəki qurumların ən müasir texnika, xilasetmə ləvazimatları, xüsusi geyimlər, texniki vasitələr və cihazlarla təminatı diqqət mərkəzində saxlanılmışdır. Ötən il Şərur və Babək rayonlarında Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin inzibati binaları, Mülki Müdafiə Alayında avtomobil parkı, təlim mərkəzi və helikopter meydançası istifadəyə verilmiş, fövqəladə hadisələr zamanı insanların təhlükəsizliyinin və normal yaşayış şəraitinin təmin edilməsi üçün səfərbərlik ehtiyatı anbarı yenidən qurulmuşdur.

2013-cü ildə tikinti işlərinin təsdiq olunmuş layihə sənədlərinə əsasən aparılmasına nəzarət edildiyini bildirən Şamı Abdullayev demişdir ki, səyyar üsulla 81 tikinti obyektində 423 dəfə dəmir-beton konstruksiyalarda betonun naturada möhkəmlik göstəricisi yoxlanılmış, 93 tikinti obyektində 434 dəfə maarifləndirmə işləri həyata keçirilmişdir. Obyektlərin layihələndirilməsi mərhələsində 102 obyektin layihə-smeta sənədləri razılaşdırılmış və tikinti işlərinin aparılması üçün təqdim olunan işçi-layihələrə müvafiq rəylər verilmişdir. Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin Mühəndis-geoloji, sement və beton laboratoriyasında 190 sınaq və analiz keçirilmişdir.



Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumları tərəfindən 1853 obyektdə əsaslı, 1788 obyektdə nəzəri yoxlamalar aparılmış, gündəlik olaraq yanğın əleyhinə reydlər təşkil edilərək 1655 ədəd əlavə çəkilmiş elektrik xətti və qeyri-standart elektrik qızdırıcıları qadağan edilmiş, 1443 ədəd şlanqla çəkilmiş qaz xəttinin və qeyri-standart qaz sobalarının istismarı dayandırılmışdır.

Sonra məruzə ətrafında Mülki Müdafiə Alayının komandiri, polkovnik İspəndiyar Əhmədovun, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Ehtiram Məmmədovun, Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəisi Vüqar Kazımovun çıxışları olmuşdur.

Kollegiya iclasına fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 138